# Poliomielit

**Uşaqlarınızı peyvənd edin!**
**Sizin uşaqlarınız sağlam böyüməlidirlər!**





Buklet Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 225 nömrəli qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası ilə bağlı Səhiyyə Nazirliyinin Tədbirlər Planının 5.2-ci bəndinə uyğun olaraq İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

Bukletin hazırlanmasında Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarından istifadə olunmuşdur. Bukletdə dərc olunanlar Səhiyyə Nazirliyinin baş pediatrı ilə razılaşdırılmışdır.

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, H. Zərdabi küç., 96
Tel: 431-60-88, Faks: 430-52-85
office@isim.az www.isim.az

**Poliomielit** sinir sistemini zədələyə, əzələlərin iflicinə gətirib çıxara və ölümlə nəticələnə bilən yoluxucu xəstəlikdir.

İnfeksiya mənbəyi xəstə insan və sağlam virus daşıyıcısıdır.

Yoluxma fekal-oral (çirkli əllər, yoluxmuş qida, əşyalar, oyuncaqlar, çirkab sular və s.) və ya hava-damcı yolu ilə, əsasən ağız boşluğuna virusun düşməsi ilə baş verir.

Poliomielitə, adətən, 15 yaşa qədər uşaqlar, nadir hallarda isə böyüklər də yoluxa bilərlər. Ən çox 5 yaşadək uşaqlar xəstələnirlər.

Azərbaycan Avropanın digər ölkələri ilə yanaşı 2002-ci ildən poliomielitdən azad ərazi sayılır. Lakin bütün dünyada poliomielit virusu ləğv edilməyənə qədər bu xəstəliyə yoluxma təhlükəsi qalır. Bu təhlükənin qarşısını almaq məqsədilə uşaqlara diri oral poliomielit vaksini (OPV) ilə peyvənd edilməlidir. Peyvənd nəticəsində uşaqlarda poliomielitə qarşı immunitet (xəstəliyə tutulmama qabiliyyəti) yaranır.

## POLİOMİELİTİN **YEGANƏ** PROFİLAKTİKA YOLU PEYVƏNDDİR!

Azərbaycanda poliomielitə qarşı peyvənd bütün uşaqlara Səhiyyə Nazirliyinin tibb müəssisələrində dövlət hesabına edilir.



Poliomielitin ilkin əlamətləri yoluxmadan sonra 3-35 gün ərzində müşahidə olunur. Xəstəlik, adətən, soyuqdəymə simptomları və hərarətin yüksəlməsi ilə başlayır. Bir qədər sonra xəstədə möhkəm əzələ ağrıları və süst ifliclər inkişaf edir. Bu zaman ətraflardan birinin, yaxud hər ikisinin hərəkət aktivliyi itir və tənəffüs əzələlərinin iflici nəticəsində tənəffüs çətinləşir. Süni tənəffüsün verilməsi üçün xüsusi ləvazimatdan istifadə olunmadıqda, xəstəlik ölümlə nəticələnə bilər.

Poliomielitin diaqnozu yalnız laborator müayinə nəticəsində qoyulur.

Poliomielit əleyhinə xüsusi müalicə yoxdur. Xəstənin müalicəsi yalnız xəstəliyin simptomlarının (hərarətin yüksəlməsi, iştahasızlıq, əzginlik, əzələ və baş ağrıları və s.) yüngülləşdirilməsindən ibarətdir.

Poliomielit keçirmiş insanların çoxu ciddi iflic qalıqları ilə üzləşir. Adekvat fizioterapiya olmadıqda iflicə məruz qalmış əzələlərin funksional aktivliyi bərpa olunmur. Əzələ aktivliyinin bərpası orqanizmin fərdi xüsusiyyət və imkanlarından da asılıdır.

Xəstəlik haqqında əlavə məlumat almaq üçün sahə həkiminə müraciət edə bilərsiniz.

Peyvənd zamanı poliomielitə qarşı vaksin məhlul şəklində pipetlə uşağın ağız boşluğuna damızdırılır.

Azərbaycanda poliomielitə qarşı peyvənd uşağın 4-7 günlüyündə, sonra isə 2, 3, 4 və 18 aylığında edilir. Beləliklə hər bir uşaq 2 yaşınadək MÜTLƏQ həmin vaksinin 5 dozasını almalıdır. Peyvəndin yalnız tam kursunu alan uşaq poliomielitdən qorunmuş hesab olunur.

Diqqət! Hindistan, Pakistan, Əfqanıstan və Nigeriyaya, həmçinin poliomielit virusunun yayıldığı istənilən digər ölkəyə səyahət etməzdən əvvəl poliomielitə qarşı peyvənd etdirmək tövsiyə olunur.

Xəstəliyə yoluxma riskləri haqqında daha ətraflı məlumatı, eləcə də kəskin poliomielit virusunun dünyada yayılması vəziyyəti haqqında son məlumatları Ümumdünya Səhiyyə Təşkilatının saytından aşağıdakı ünvanlarda əldə etmək olar:

*http://www.euro.who.int/en/what-we-do/health-topics/communicable-diseases/poliomyelitis*
*http://www.polioeradication.org*